**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№364/11** **09 aprel 2024-cü il**

**"Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsi üzrə 2024-cü il üçün Plan-qrafik"in təsdiq edilməsi barədə**

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Palatanın Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov) və Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə şöbəsi (H.Məmmədova) tərəfindən təqdim edilmiş "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsi üzrə 2024-cü il üçün Plan-qrafik"in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsi üzrə 2024-cü il üçün Plan-qrafik" təsdiq edilsin (əlavə olunur).

2. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) və Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə şöbəsinə (H.Məmmədova) tapşırılsın ki:

2.1. iki həftə müddətində təsdiq edilmiş plan-qrafikin auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin;

2.2. təsdiq edilmiş plan-qrafikə uyğun olaraq keçiriləcək monitorinqlər barədə bildiriş məktublarının bir ay öncədən monitorinqi aparılacaq auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin;

2.3. 2024-cü il üçün nəzərdə tutulmuş auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsini "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq vaxtında və keyfiyyətlə həyata keçirilməsi təmin edilsin.

3. Bu qərarın və "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqinin həyata keçirilməsi üzrə 2024-cü il üçün Plan-qrafik"in mətnləri Auditorlar Palatasının internet səhifəsində və "auditorun şəxsi kabineti" sistemində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**